# Baş nazir Əli Əsədov Dağıstan Respublikasının rəhbərinə başsağlığı verib

Avqustun 15-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Rusiya Federasiyasının Dağıstan Respublikasının rəhbəri Sergey Məlikova Mahaçqalada yanacaqdoldurma stansiyasında baş vermiş partlayış nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar başsağlığı verib.

Bu barədə AZƏRTAC-a Nazirlər Kabinetinin Mətbuat xidmətindən məlumat verilib.

Əli Əsədov Dağıstan Respublikasının rəhbərinə, həlak olanların doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verib, xəsarət alanlara şəfa diləyib.

Azərbaycan. - 2023.- 16 avqust.- S.2.